UOT 94
https://doi.org/10.59849/2710-0820.2026.1.62

**Nəsibli Xəzər**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun*
*“Azərbaycanın VII-XIV əsrlər tarixi” şöbəsinin doktorantı*
*nasibkhazar@gmail.com*

# HÜLAKÜ XANIN XARİCİ SİYASƏTİNƏ NESTROİAN KİLSƏSİNİN TƏSİRİ

***Açar sözlər:*** *Elxanilər, Hülakü xan, nestorian xristianlığı, Doqquz Xatun, Kitboğa, Orta Şərq diplomatiyası*

Çingiz xanın nəvələrindən biri olan Hülakü xan, XIII əsrin Orta Şərq tarixinin inkişafında mühüm rol oynamış tarixi şəxsiyyətlərdən biridir. Hülakü xanın geniş hərbi yürüşləri, Monqol hakimiyyətinin Azərbaycan, İran və Yaxın Şərqə doğru genişlənməsinə səbəb olmuş və nəticədə 1256-cı ildə paytaxtı Marağa şəhəri olan Elxanilər dövlətinin yaradılmasına gətirib çıxarmışdır. Elxanilər dövlətinin tarixi boyunca yayıldığı ərazilərdəki siyasəti bir çox dəyişilmə mərhələlərindən keçmişdir. Lakin bu böyük coğrafi və siyasi dəyişikliklər təkcə hərbi qüdrət hesabına baş verməmişdir. Elxanilərin banisi olan Hülakü xanın diplomatik siyasətinin formalaşmasında dini və mədəni amillər mühüm rol oynamışdır. O tarixdə islama qarşı mövqeyi və dərin xristianlıq əlaqələri ilə yadda qalmışdır.

Monqolların qərbə doğru irəlləməsindən əvvəlki dövrlərdən başlayaraq bəzi monqol tayfaları arasında Xristianlıq artıq geniş yayılmışdır. Xüsusilə də Şərq Kilsəsi adlanan “Nestoriyanlıq” adı ilə tanınan xristian dini cərəyanı monqollar arasında mühüm dini cərəyan olmuşdur. Çin torpaqlarında - Şaanxi vilayətinin Xinan şəhəri ətrafında - kəşf edilən daş lövhə Nestorian xristianlarının Uzaq Şərqə səyahətlərinin ilk mərhələlərini ətraflı surətdə təsvir edir (Goodspeed, 1909). Tang sülaləsinin hökmranlığı dövründə, 635-ci ildə başlanan bu dini genişlənmə imperator Tai-zongun dəstəyini qazanmışdı. Ancaq iki əsr sonra, 845-ci ildə imperator Vu-zong bu xristian fəaliyyətinə son qoymuş, bütün əcnəbi missionerlər ölkədən çıxarılmışdır. Bu hadisədən sonra nestorian icmaları Şərqi Asiya coğrafiyasından tamamilə silinib getmişdir. Bu hadisənin üzərindən 150 il keçdikdən sonra, XIII əsr tarixçisi yakobit Qriqori Bar Ebreyin (lat. Bar Hebraeus və ya ərəbcə Əbülfərəc bin Harun) məlumatına görə, bəzi nestorian dünyəvi missionerləri (Moğol çöllərindəki qəbilələrlə ticarət edən xristian tacirləri) Moğol çöllərinin şərq hissəsində yerləşən Kərait adlı türk-moğol qəbiləsinə onların xanı vasitəsilə xristianlığı qəbul etdirməyə başlamışdı. Çinin şimalı ilə Monqolustan arasındakı steplərdə yaşayan xalqlar arasında **Kəraitlər** Nestorian xristianlığını ilk qəbul edən tayfa olmuşlar. Tarixçi **Fəzlullah Rəşidəddin** yazırdı ki, **Kəraitlər Nestorian xristianları** idilər (Tang, 2011). 1009-cu il tarixli Bağdaddakı nestorian patriarx VI Cona ünvanlanmış məktuba görə, Missiyanın nəticəsində Kərait xanı və onun qəbiləsindən 200.000 nəfər vəftiz edilmişdir. Bu hadisə təxminən iki əsr sonra Moğol imperiyasında nestorian xristianlığının canlanmasına səbəb olmuşdur (Zhou, 2018).

Kerait qəbiləsi və Çingiz xan xanədanlığı arasında bağlanan siyasi-nikah ittifaqları monqol dövlət elitasının xristian dininə münasibətinin formalaşmasında fundamental əhəmiyyət kəsb etmişdir. Kerait mənşəli şəxslərin bir qismi moğol dövlət aparatında ali vəzifələr tutmuş, moğol hökmdarları isə sistemli şəkildə nestorian kerait sülaləsinin qadın nümayəndələri ilə evlilik əlaqələri qurmuşlar. Regional səviyyədə Orta və Daxili Asiya etnosları ilə ikitərəfli münasibətlərin genişləndirilməsi çərçivəsində keraitlər nestorian xristian təliminin coğrafi yayılmasına əhəmiyyətli töhfə vermişlər.

Tarixi mənbələrdə Monqolların dinə qarşı dözümlülüyünü tez-tez vurğulanır, lakin daha dərindən baxıldığı zaman aydın olur ki, bu siyasət açıq şəkildə zərurətdən irəli gələn strategiya idi və işğal edilmiş xalqlar arasında düşmənçi-

lik və üsyan təhlükəsini azaltmaq məqsədi daşıyırdı. Monqol İmperiyasının dini pluralizmi xeyirxah mövqe əks etdirmək üçün deyil, əksinə, hesablanmış strateji pragmatizm nümunəsi idi. Bu yanaşım konkret olaraq nestorian, buddist və daoist ruhanilərin vergidən azad edilməsi, məbədlərin dövlət himayəsində qorunması və dini mərasimlərin sərbəst icra olunmasına icazə verilməsində özünü göstərirdi. Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix" əsərində və Uilyam of Rubrukun "Itinerarium" səyahət qeydlərində təsbit edildiyi kimi, Monqol hökmdarları müxtəlif dini icmaları birbirlərinə qarşı balanslaşdıraraq heç birinin üstünlük qazanmaması strategiyasını həyata keçirirdilər. Bu dinlərarası manevr siyasəti digər orta əsr imperiyalarının – Bizans İmperiyası və İslam Xəlifəliklərinin – təkdinli yanaşmasından köklü surətdə fərqlənir və Monqol İmperiyasının çoxetnikli strukturunun idarəedilməsində vacib alət rolunu oynayırdı. Beləliklə, xristianların Hülakü xanın diplomatiyasındakı nüfuzlu mövqeyi bu ümumi strateji praqmatizmin tərkib hissəsi kimi dəyərləndirilməlidir.

Erkən Monqol hökmdarları ümumilikdə dini tolerantlıqları ilə tanınırdılar. Hülakü xan da bu ənənəni davam etdirdi və onun hakimiyyəti dövründə xristianlıq Monqol cəmiyyətində müəyyən dərəcədə xüsusi mövqe qazandı. Ümumiyyətlə bu dini himayə siyasəti Hülakü xanın beynəlxalq diplomatiyasında da mühüm rol oynayırdı. Qubilay xanın bütün strateji ehtiyatlarını Çin ərazisinin möhkəmləndirilməsi, o cümlədən 1274 və 1281-ci illərdə Yaponiyaya qarşı həyata keçirdiyi uğursuz hərbi səfərlərinə yönəltməsi, onun beynəlxalq diplomatik fəaliyyət göstərmək imkanlarını məhdudlaşdırdı. Bu şəraitdə İslam dünyası ilə aparılan geosiyasi rəqabət kontekstində Qərb dövlətləri ilə sistemli diplomatik münasibətlərin qurulması və saxlanması vəzifəsini Yuan sülaləsi deyil, məhz Elxani dövləti öz üzərinə götürdü. Bu hal Elxanilərin beynəlxalq diplomatik sistemdə yaranmış boşluğun doldurulmasında əsas oyunçu kimi çıxış etməsinə və Avropa diplomatiyasında önəmli tərəfdaş mövqeyi qazanmasına gətirib çıxarmışdı. Xüsusilə Avropa xristian dövlətləri ilə ittifaq axtarışları və Xaçlı müharibələrinin gedişatına müdaxilə cəhdləri bu çərçivədə inkişaf edirdi.

Hülakü xan ümumi dini dözümlülük tətbiq etsə də, onun əsas məqsədi mövcud olan islam siyasi strukturlarını dağıtmaq idi. Qeyri-müsəlman qrupları, xüsusilə xristianlar Hülakü xan üçün potensial müttəfiq, ya da onun hərbi yürüşlərinə qarşı müqavimət göstərmək ehtimalı az olan yerli əhali qrupları idi. Rəşidəddin və Uilyamın səyahət qeydlərində də yazıldığı kimi, Hülakü xanın dini siyasəti buddist və xristian ruhanilərinə müsəlmanlarla müqayisədə daha çox imtiyazlar verməsi nəticəsində imperiyanın ərazilərində müsəlman əhali arasında narazılıq və sonradan İslama meyl kimi gərginlik yaranmışdır. Bu fakt, onun hərbi və siyasi məqsədləri ilə dini siyasətinin seçici şəkildə tətbiqi arasında birbaşa səbəb-nəticə əlaqəsini göstərir. Yəni, ümumi dini dözümlülük, onun əsas rəqiblərini zəiflətmək üçün strateji alətə çevrilmişdi.

Hülakü xanın Xristianlığa münasibəti mürəkkəb və çoxşaxəli olmuşdur. Bu yanaşma əsasən siyasi praqmatizmə əsaslanır, onun ailəsində və sarayında mühüm mövqe tutan xristian şəxsiyyətlərin təsiri ilə formalaşır və ortaq müsəlman rəqiblərə qarşı ittifaqlar qurmaq məqsədilə strateji olaraq istifadə edilirdi. Bu dinamika Orta Şərqdəki xristian icmalarına dərin təsir göstərmiş və onun hakimiyyəti dövründə regionun geosiyasi mənzərəsini əhəmiyyətli dərəcədə dəyişmişdir.

Hülakü xanın xristianlara qarşı münasibətini formalaşdıran əsas amillərdən biri onun anası Sörköktəni Bəgi olmuşdur. O Kərait tayfasından olan dindar bir Nestorian xristian şahhzadəsi idi. Sörkökdəngi Bəgi Monqol siyasətində böyük təsirə malik aparıcı xanımlardan hesab edilirdi. Sörköktəni Bəgi Monqol siyasi həyatını məharətlə idarə edərək Hülakü xan da daxil olmaqla bütün oğullarının yüksək vəzifələrə yüksəlməsini təmin etmişdir (Zhou, 2018). Bundan əlavə, onun həyat yoldaşı Doqquz Xatun (Orkina) da Kərait tayfasından olan nestorian xristian idi və xristianlığın qətiyyətli tərəfdarı kimi tanınırdı. Rəşidəddinin yazdığına görə, Doqquz Xatun birinci həyat yoldaşı Toluy xan olmuşdur. Toluy xan, Çingiz xan və Börtənin dördüncü oğludur. Çingiz xanın ölümündən sonra bir müddət İmperiyanın naibi olmuş, daha sonra o özünə Böyük Nayon titulu götürmüşdür. Onun ölümündən sonra Doqquz xatunun ikinci evliliyi Hülakü xan ilə olmuşdur və bu

1250-ci illərin əvvəllərində Hülakü xan İrana yola düşməzdən əvvəl baş tutmuşdur. Doqquz Xatunun Toluy xan ilə ilk evliliyi ona sarayda böyük nüfuz qazandırmışdı. Rəşidəddin öz yazılarında qeyd edirdi ki, Doqquz Xatun Halükünün atasının xanımı olduğu üçün, Hülakunun ondan əvvəl evləndiyi digər xanımlardan daha üstün idi (De Nicola, 2017).

Möngke xan Hülakünü qərb səfərinə göndərərkən ona bütün məsələlərdə baş xanımı Doqquz Xatun ilə məsləhətləşməsini tövsiyə etmişdi (Jackson, 2017). Monqol xanımlarının döyüşlərdə iştirakına nadir hallarda rast gəlinməsinə baxmayaraq, Doqquz Xatun Hülakünün hərbi yürüşlərində ona mütəmadi yoldaşlıq edirdi. O, xristianların qorunması, onlara qarşı hörmət göstərilməsi və toxunulmazlıqlarının təmin edilməsi sahəsindəki fəaliyyəti ilə tanınırdı. Hətta Doqquz xatunun təkidi ilə Hülakü xanın xristianlığı qəbul etdiyinə dair bəzi iddialara da tarixi mənbələrdə rast gəlinir.

Doqquz Xatunun xristianlığa olan rəğbəti monqol yürüşlərində də özünü göstərirdi. Xüsusilə, 1258-ci ildə Bağdadın işğalı zamanı xristian icmasının qorunması məqsədilə həyata keçirdiyi müdaxilə nəticəsində çoxsaylı insanın həyatının xilas edildiği tarixi mənbələrdə qeyd olunur. Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix" əsərində və müasir xristian xronikalarında təsbit edildiyi kimi, məhz Doqquz Xatunun birbaşa müdaxiləsi və ya təsiri sayəsində xristian əhali həmin kütləvi qətliamdan nisbətən qorunmuş, lakin şəhərin digər təbəqələri geniş miqyaslı qırğına məruz qalmışdır. Hətta bu himayə o qədər irəli getmişdi ki, 1260-cı ildə Hülakü xan, Katolik inancını qəbul etməyə meyilli olduğuna görə Roma Papasından xoşbəxt olmasına dair məktub almışdı (Sykes, 1915). Həmin dövrün xristianları Hülakü və Doqquz Xatunu böyük ehtiramla anır, onları müqəddəslər olan Konstantin və Yelenaya bənzədirdilər. Qriqori Bar Ebrey (Bar Hebraeus) özünün assuriyan dilli əsərində monqolların işğalı dövründə xristianları müsəlman hakimiyyətindən qurtulan və müəyyən mənada azadlığa çıxan bir icma kimi təqdim edir. O, Bağdad qətliamı zamanı monqolların xristian əhalini qoruduqlarını xüsusi vurğulayır və Hülakü ilə onun baş xanımı Doquz xatunun ölümünə dərin hüznlə yanaşaraq, onları “xristian dinini ucaldan iki böyük nur” adlandırır (Jackson, 2017). Bu ifadə, monqol fəthlərinin bəzi xristian icmaları üçün yalnız dağıntı və zorakılıq deyil, eyni zamanda dini baxımdan bir imkan və ya azadlıq dövrü kimi də qəbul edildiyini göstərir. Hətta deyilir ki, Hülxakü xan, köçəri düşərgəsində bir kilsə də inşa etdirmişdi. 1230-cu illərdən başlayaraq əhalisinin çox hissəsinin müsəlmanlardan ibarət olan Təbriz və Naxçıvan şəhərlərində Nestorian rahib olan Simeon Rabban kilsələrin tikintisində birbaşa iştirak etmişdir. Elxanilər dövründə Marağa, Ərbil və Bağdadda da yeni kilsələr meydana çıxdı. Rəşidəddinin əsərlərində Hülakünün kilsələrin tikintisinə xanımı Doqquz Xatunun təsiri altında icazə verdiyinə dair fərziyyələr var (Jackson, 2017).

Hülakü xanın ən yaxın sərkərdələrindən biri olan Kitboğa da həmçinin şərq nestorian xristianlarından idi. Hülakü xanın Qərbi Asiyadakı böyük hərbi kampaniyasına başlamazdan əvvəl, onun ən etibarlı sərkərdəsi olan Kitbuqanın komandanlığı altında xüsusi qoşun dəstəsi İsmaililərin - yəni Mülhidlər kimi tanınan dini-siyasi təşkilatın mərkəzlərinə qarşı əməliyyat həyata keçirmək üçün 1252-ci ildə Böyük Xan Möngkənin əmri ilə göndərilmişdi. Kitbuqanın irəliləyişi nəticəsində İran yaylasının əsas şəhərlərində Monqol hakimiyyəti bərpa edildi və İsmaili icmasının kiçik həcmli, lakin mühüm stratejik əhəmiyyət daşıyan qala-istehkamlarının da bir hissəsi təslim olmağa məcbur edildi. Bu hərbi səfər Elxani qoşunlarının Qərbi Asiya ekspedisiyasının zəfərlə başlanması üçün arxa cəbhənin təmizlənməsi və regional təhlükəsizliyin təmin edilməsi məqsədini daşıyırdı.

Kitbuğa Monqolların Yaxın Şərqdəki genişlənmə siyasətinin mərkəzi fiqurlarından biri olmuş, 1258-ci ildə Bağdadın işğalı və yağmalanması, daha sonra 1260-cı ildə Dəməşqin fəthi kimi əsas hərbi əməliyyatlarda fəal rol oynamışdır. Monqol hərb tarixinin ən güclü dövrlərində orduda yüksək vəzifə tutmuş Nayman türkü və Nestorian xristian olan Kitbuğa, Hülakü xanın ən etibarlı sərkərdəsi kimi onun hərbi yürüşlərində, o cümlədən Suriyanın fəthində iştirak etmişdir.

1258-ci il Bağdad mühasirəsi və sonrakı işğal İslam dünyasının geosiyasi strukturunda paradigmatik dəyişikliklərə səbəb olan tarixin dönüm nöqtələrindən biri olaraq qalır. Hülakü xa-

nın qoşunları qərb istiqamətində stratejik irəliləyişi nəticəsində şəhərə şimal istiqamətindən yanaşma əməliyyatı həyata keçirildi. Şəhərə yaxınlaşma mərhələsində iki hökmdar arasında diplomatik yazışmalar mübadiləsi aparıldı, lakin Xəlifə əl-Mustəsim billahın təslimiyyət təkliflərini qəti şəkildə rədd etməsi hərbi həllə üstünlük verilməsinə gətirib çıxardı.

Monqol silahlı qüvvələri 1258-ci ilin yanvar ayının əvvəlində şəhəri mühasirə altına alaraq sistematik həmlə əməliyyatlarına başladılar və fevral ayının ilk günlərində müdafiə istehkamlarının yarmaqla aşılması nəticəsində şəhərin işğalı baş tutdu. Xəlifənin əsir götürülməsi və sonrakı edam proseduru Abbasi xəlifəliyinin rəsmi olaraq ləğv edilməsini təsdiqlədi. Şəhərin işğal edilməsi kütləvi qırğın və dağıntı ilə müşayiət olundu. Bəzi tarixçilər üçün bu hadisə İslam dünyasının başına gələn müsibət hadisədir. Bağdad şəhərinin yarısından çoxu dağıdıldı, yüz minə yaxın insan öldürüldü, lakin Doquz Xatun təkidi ilə xristian əhaliyə toxunulmadı.

Bağdadın işğalından sonra Hülakü xan cənubi İraqın tam nəzarət altına alınması məqsədilə cənub istiqamətində hərbi ekspedisiya göndərdiş Özü isə şimal istiqamətində əvvəlcə Həmədana, daha sonra Azərbaycan regionuna irəliləyiş həyata keçirdi və Suriya yürüşünün başlanğıcına qədər bir ildən artıq müddətdə bu regionda mövqelərini gücləndirdi. 1258-1260 ci illərdə Antioxiya knyazı VI Bohemond, Klikiya kralı I Hetum və Gürcü xristianları Hülakü xan ilə yaxından əməkdaşlıq etmiş, Hülakü xanın ordusuyla yürüşlərdə iştirak etmişdirlər. Kitbuğanın başçılığı ilə Hülakü xan Hələb şəhərinə ordu göndərdi. 1260-cı il martın 1-də isə monqollar, ermənilər və Antixioya frankları ilə birlikdə xristian monqol sərkərdəsi Kitbuğanın başçılığı altında Dəməşqi ələ keçirdilər. Üç xristian hökmdar Dəməşq şəhərinə birlikdə daxil oldular. Üməyyə məscidində (keçmiş Müqəddəs İohann Baptist kafedralı) ayinlər keçirildi və çoxsaylı məscidlərdə dini dəyərlərə qarşı hörmətsizlik edildi. Birləşmiş xristian qüvvələri və Kitbuğa xanın başçılığı ilə Hələb və Dəməşq şəhərləri işğal edildi. Gördüyümüz kimi, xristian liderlərin Elxanilərin hərbi yürüşlərinə və Hülakü xanın diplomatiyasına təsirləri olmuşdur. (source?) 3 sentyabr 1260-cı ildə Filistinin Ayn Calut düzənliyində baş verən döyüş Monqol tarixinin ən mühüm məğlubiyyətlərindən biri olmuşdur. Kitbuğanın rəhbərliyi altında təxminən 20.000 nəfərlik qarışıq qoşun Məmlük sultanı Qutuzun 25.000 nəfərlik ordusu qarşısında məğlub olmuşdur. Döyüşdə Məmlük sərkərdəsi Beybarsın həyata keçirdiyi yan-əhatə manevri nəticəsində monqol qoşunu tələyə düşmüş, Kitboğa əsir götürülərək edam edilmişdir. Bu döyüşdə monqollarla yanaşı Antioxiya frankları, erməni və gürcü qüvvələri də iştirak etmiş və böyük itkilər vermişlər. Ayn Calut döyüşü yalnız hərbi məğlubiyyət kimi qalmadı, eyni zamanda Hülakü xanın xristian ittifaqlarına əsaslanan diplomatik strategiyasının fundamental zəifliklərini də ortaya qoydu. Nestorian xristian sərkərdə Kitboğanın döyüşdə həlak olması regional xristian icmaları üçün böyük itki oldu və Məmlüklərin sonrakı təzyiqləri qarşısında onların müdafiəsizliyini artırdı. Bu hadisə Hülakü xanı Avropa ilə daha intensiv diplomatik fəaliyyətə yönəltdi və xristian dəstəyi axtarışlarının zəruriliyini bir daha təsdiqlədi. Ayn Calut məğlubiyyəti Hülakü xanın xristian ittifaqlarına əsaslanan diplomatik strategiyasına ciddi zərbə vurmuşdur. Döyüşdən sonra monqollar Fərat çayının şərqinə çəkilməyə məcbur olmuş, Suriya və Fələstində bütün qazanılmış torpaqları itirilmişdir. Məmlük dövləti bu qələbədən sonra İslam dünyasının müdafiəçisi kimi mövqeyini möhkəmləndirərək "cihad" ideologiyasını canlandırmış və bütün müsəlman icmalarının dəstəyini qazanmışdır. Bu hadisə nəticəsində Hülakü xan Avropa xristian dövlətləri ilə daha intensiv diplomatik fəaliyyətə başlamış və xarici yardım axtarışlarını gücləndirmiş, lakin Monqolların Yaxın Şərqdə genişlənmə planları köklü şəkildə məhdudlaşmışdır.

Hülakü xan saray idarəçiliyində həm Uyğur, həm də Assuriya mənşəli xristianlara yüksək vəzifələr təklif etməklə onların inzibati təcrübəsindən sistemli şəkildə yararlanırdı. Bu siyasət onun daha geniş strategiyasının tərkib hissəsi idi. Avropa və Yaxın Şərqdəki xristian dövlətləri ilə Misir Məmlük Sultanlığına qarşı geosiyasi ittifaq yaratmaq. Son Əyyubi kralı Ən-Nasir Yusif 1260-cı ildə öldü və İslamın Bağdad və Dəməşqdəki güc mərkəzləri yox olduqdan sonra, İslam hakimiyyətinin mərkəzi Qahirədəki Misir Məmlüklərinə keçdi. Lakin, monqolların Misirə doğru irəlləməsi bir müd-

dətlik dayandı, çünkü Monqol imperiyasının daxilində baş verən çəkişmələr və Şimalda mövcud olan Qızıl Orda təhlükəsi səbəbindən geri çəkilməli oldular.

Hülakü xan üçün Avropa xristianları ilə münasibət qurmaq strateji zərurət idi. Şimalda Qızıl Orda və cənubda Məmlüklərlə olan gərginlik Hülakü xanın xarici siyasətinin qarşısında duran ən böyük maneələr idi və qərb xristianları ilə ittifaq qurulması bu çətin vəziyyətdən çıxış yolu kimi görünürdü. Hülakü xanın diplomatik təklifləri o qədər radikal idi ki, o hətta Levant regionundakı müsəlmanlara qarşı birgə hərbi əməliyyatlarda əməkdaşlıq etmələri halında Qüdsün xristianlara qaytarılması vədini vermişdi. Monqolların qərb istiqamətində irəliləyişi başlayanda regional xristian qüvvələri, xüsusilə Kilikiya Krallığı bu yeni geosiyasi imkandan maksimum faydalanmaq niyyətində idilər.

XIII əsrin ortalarında Yaxın Şərqdə Xaçlı dövrlərindən qalan xristian siyasi təşkilatları hələ də mövcud idi: Antioxiya Knyazlığı, Trabulus Qraflığı və Qüds Krallığı. Bu dövlətlərin həyata qalması üçün güclü himayəçi axtarışları qaçılmaz idi. 1246-cı ildə Antioxiya knyazı V Bohemond və Kilikiya kralı I Hetum Monqol üstünlüyünü tanıyaraq vassallıq münasibətləri qurmuşdular. 1259-cu ildə Hülakü xanın qoşunları Antioxiya yaxınlığına çatdıqda, VI Bohemond və Het'um öz tabeliyini rəsmən təsdiq etdilər və fəal hərbi dəstək göstərmək öhdəliyi götürdülər (Goodspeed, 1909). Kilikiya kralı Het'um Möngke xanın Hülakünü qərb istiqamətində göndərməsini xristianlıq üçün tarixi imkan kimi dəyərləndirirdi. O, xüsusilə Bağdadın işğalının müqəddəs torpaqların xristianlara qaytarılması prosesinin başlanğıcı olacağına inanırdı. XIV əsrdə yazılmış "Mandeville's Travels" əsərində hətta Möngke xanın xristian olduğu və qardaşı Hülakünü məhz müqəddəs torpaqları azad etmək missiyası ilə göndərdiyi iddiası irəli sürülür, baxmayaraq ki, bu məlumatın tarixi həqiqətlə uyğunluğu şübhəlidi (Murad, 2024). Hətta Hetum özü ilə birlikdə kürəkəni olar VI Bohemondu Monqolların düşərcəsinə gətirmişdi. 1259-cu ildə Hülakü xanın ordusu Hələb şəhərinə yürüşündə gürcü, erməni və səlcuq rumları da iştirak edirdi. 1260-cı illdə monqolların Suriyada olan uğursuzluqlarından sonra, Buradakı xristian dövlətləri Məmlüklərin əsas hədəfinə çevrilmişdir. Belə ki, Hetum öz krallığını qorumaq üçün Hülakü xan ilə birbaşa əməkdaşlığa cəhd etmişdir. 1260-cı ildəki Ayn Cəllut döyüşü, monqolların tarixində ilk dəfə böyük bir döyüşdə məğlub olmaları ilə əlamətdardır. Bu döyüş, onların Yaxın Şərqə doğru irəliləməsinin qarşısını aldı. Hülaku, məğlubiyyətin qisasını almağa qərarlı idi, lakin eyni zamanda Monqol imperiyası daxilində daxili problemlərlə üzləşirdi. Xüsusilə, Qızıl Ordanın hökmdarı olan əmisi Bərkə xanla olan düşmənçilik onun planlarını pozurdu.

Monqol hökümdarlarının avropa dövlətlərinə yazdığı məktublar monqolların yaxın şərqdə hansı istiqamətdə siyasət apardığının əsas göstəricilərindən biridir. Möngke xan Hülakünü qərb istiqamətindəki yürüşlərində müstəqil hökmdar kimi deyil, ordu komandiri kimi göndərmişdi. Bu status Hülakünün 1261-ci ildə Fransa Kralı IX Louisə yazdığı məktubda öz ifadəsini tapır. Vatikan arxivində latin dilinə çevrilmiş əsli mövcud olan və Paul Mayvayert tərəfindən nəşr edilmiş bu məktubda Hülakü xan özünü "dux millicie mungolorum" (Monqol ordusunun komandiri) adlandırmışdır. Bundan əlavə, onu 'chef supreme, le khan Hulagu' (böyük komandir Hülakü xan) adlandıran xristian olan Smbat tərəfindən dəstəklənmişdir (Hope, 2016). Bu məktubun latin dilinə çevrilmiş əsli Vatikan arxivində mövcuddur və günümüzə qədər gəlib çıxıb və Paul Mayvayert tərəfindən yayınlanmışdır. 1261-ci il məktubunda Hülakü xan Monqol qüdrətini vurğulayaraq tabe olmayan dövlətlərin aqibəti haqqında məlumat verir. Məktubda Tibet haqqında da bəhs edilir və bu region "Teubets" və "Tubets" adları ilə qeyd olunur. Həmçinin işğal etdiyi əraziləri sadalayaraq Bağdadın işğalı zamanı Xəlifənin iki min adamının öldürüldüyünü bildirir. Hələb və Dəməşqin işğalından bəhs edərək, bu ərazilərin yüksək vəzifəli şəxslərinin başlarının Təbrizin qapısına asıldığını qeyd edir. Məktubun əsas məqsədi Fransa kralından müsəlmanlara qarşı mübarizədə kömək istəmək idi. Hülakü xan təklif edirdi ki, xristianlar onun qoşununa əsgər versin və IX Louisin dəniz donanması Suriya və Misirin sahillərində yerləşərək Monqol qoşunlarının müsəlman torpaqlarına hücumu zamanı dəstək göstərsin. Həmçinin müsəlmanlara qarşı yardım edilməməsi halında Fransa kralı-

nın müqavimət göstərən digər hökmdarlarla eyni aqibətə düçar olacağı barədə xəbərdarlıq edilirdi. 1262-ci ildə Hülakü xan Fransa Kralı IX Louisə elçi heyəti göndərdi. Lakin heyət Sicilya adasına çatanda Roma Papası ilə münasibətləri pis olan Sicilya kralı Manfred tərəfindən geri qayıtmağa məcbur edildi (Amitai-Preiss, 1995). Bu hadisə Avropadakı siyasi parçalanmanın Hülakü xanın diplomatik planlarına mənfi təsirini göstərir. Hülakü xanın məktubunda əslən Macarıstandan olan John adında şəxsdən bəhs edilir. 1263-cü ildə Papa IV Urban tərəfindən Hülakü xana yazılmış məktubda da bu şəxsin adı qeyd olunur. Tarixi mənbələrə əsasən, John Hülakü xanın göndərdiyi elçi heyətində iştirak etmiş, Sicilyadakı fəsadlar zamanı Manfredin qoşunlarından qaçaraq Macarıstana gəlmiş və Roma Papasına Hülakü xanın yardım xahişi haqqında məlumat çatdırmışdır.

1263-cü ildə Roma Papası bu məlumatlara qısa cavab yazaraq Qüds Krallığına Hülakü xanın əsl məqsədlərini araşdırması barədə təlimat vermişdir. Məktubun məzmununda Hülakü xanın xristianlığa rəğbətindən bəhs edilir, hətta onun xristian olacağına dair ehtimallar ifadə olunur.

Elxanilərin qərb istiqamətindəki son böyük fəth dalğası olmasına və Hələb və Dəməşq kimi mühüm şəhərləri ələ keçirməyə nail olmalarına baxmayaraq, Ayn Calut döyüşündəki uğursuzluq Suriyada qazanılmış bütün ərazi qazanclarının itirilməsinə gətirib çıxardı. Monqolların bu məğlubiyyəti təkcə regional hadisə kimi qalmadı, əksinə İslam dünyası üçün həm Monqollara, həm də uzun müddət mübarizə apardıqları Xaçlı qüvvələrinə qarşı böyük mənəvi güc mənbəyinə çevrildi. Bu hadisə Məmlük rəhbərliyi altında cihad ideologiyasının canlanmasına və İslam birliyinin möhkəmlənməsinə əsas verdi. Bu səbəbdən Hülakü xanın başlatdığı həmin səfərin böyük uğursuzluqla nəticələnməsi ilə Monqollar Fərat çayının şərqinə sıxışdırıldılar və sonrakı Abaqa xan və Qazan xan dövrlərində davam edəcək hücum cəhdlərinə qarşı Məmlüklər uğurlu müqavimət göstərmək qabiliyyətini nümayiş etdirəcəkdilər. Məğlubiyyətin əks-sedaları yalnız hərbi sahədə məhdudlaşmadı. Məmlük dövləti öz siyasi legitimliyini İslamın müdafiəçisi kimi möhkəmləndirərək bütün Yaxın Şərq müsəlman icmalarının dəstəyini qazandı. Bu yeni geosiyasi reallıq Elxanilərin qərb istiqamətindəki genişlənmə planlarını köklü şəkildə yenidən nəzərdən keçirməyə məcbur etdi və onların diplomatik strategiyasında fundamental dəyişikliklərə səbəb oldu.

**Nəticə**

Hülakü xanın diplomatik siyasətinin formalaşmasında nestorian xristianlığının təsiri XIII əsrin Orta Şərq tarixində baş verən ən mühüm geosiyasi dəyişikliklərdən birinin əsas determinantı olmuşdur. Bu tədqiqat göstərir ki, Elxanilər dövlətinin xarici siyasət strategiyası təkcə hərbi qüdrət və siyasi praqmatizmə əsaslanmamış, eyni zamanda dərin dini və mədəni köklərə malik olmuşdur.

Nestorian xristianlığının monqollar arasında yayılması prosesi XI əsrdən başlayaraq Kərait qəbiləsinin 200.000 nəfərinin vəftiz edilməsi ilə fundamental dönüş nöqtəsinə çatmışdır. Bu hadisə iki əsr sonra Monqol imperiyasının formalaşması zamanı xristianlığın dövlət strukturlarında nüfuz qazanmasının əsasını qoymuşdur. Çingiz xan xanədanlığının Kərait qəbiləsi ilə qurduğu siyasi-nikah ittifaqları, xüsusilə də Hülakü xanın anası Sörköktəni Bəgi və həyat yoldaşı Doqquz Xatunun nestorian mənsubiyyəti, onun diplomatik dünyagörüşünün formalaşmasında birbaşa təsir göstərmişdir.

Hülakü xanın dini dözümlülük siyasəti, zahirən humanist prinsiplərə əsaslanan kimi görünsə də, əslində mürəkkəb strateji hesablamaların nəticəsi olmuşdur. Bu siyasət İslam siyasi strukturlarını zəiflətmək və işğal edilmiş ərazilərdə müqavimət potensialını azaltmaq məqsədilə həyata keçirilmişdir. Nestorian, buddist və daoist ruhanilərin vergidən azad edilməsi, məbədlərin dövlət himayəsində qorunması kimi tədbirlər bu strategiyanın konkret təzahürləri olmuşdur. Eyni zamanda, bu yanaşım müsəlman əhali arasında narazılığa səbəb olmuş və sonradan İslama meyletmə kimi gərginliklər yaratmışdır.

Doqquz Xatunun Hülakü xanın siyasətinə təsiri xüsusilə diqqət çəkicidir. Onun 1258-ci ildə Bağdadın işğalı zamanı xristian icmasının qorunması üçün göstərdiyi müdaxilə, həm humanitar, həm də siyasi əhəmiyyət daşımışdır. Bu himayə siyasəti o qədər irəli getmişdir ki, Hülakü xan Roma Papasından xristianlığa me-

yilli olduğuna görə təbrik məktubu almışdır. Hətta onun köçəri düşərgəsində kilsə inşa etdirməsi və Təbriz, Naxçıvan, Marağa, Ərbil və Bağdadda yeni kilsələrin tikintisinin dəstəklənməsi xristian icmasına göstərilən sistemli himayənin göstəricisi olmuşdur.

Hülakü xanın ən etibarlı sərkərdəsi olan Kitboğanın nestorian xristian mənsubiyyəti və onun 1258-ci ildə Bağdadın işğalı, 1260-cı ildə Dəməşqin fəthində oynadığı mühüm rol, xristian amillərinin hərbi strategiyaya birbaşa təsirini nümayiş etdirir. Üç xristian hökmdarın - Antioxiya knyazı VI Bohemond, Kilikiya kralı I Het'um və gürcü liderlərin - Hülakü xanın ordusu ilə birgə Dəməşqə daxil olması və Üməyyə məscidində xristian ayinlərinin keçirilməsi, bu dövrün dini-siyasi dinamikalarının simvolik ifadəsi kimi qiymətləndirilə bilər.

Beynəlxalq diplomatik kontekstdə, Hülakü xanın Avropa xristian dövlətləri ilə ittifaq axtarışları və Xaçlı müharibələrinin yeni formatda canlandırılması cəhdləri, xristian diplomatik nəzəriyyəsindən bilavasitə təsirlənmişdir. Onun Fransa kralı IX Louis və Roma Papası ilə apardığı yazışmalar, Qüdsün xristianlara qaytarılması vədləri və müsəlmanlara qarşı birgə hərbi əməliyyatlar təklifi bu strategiyanın konkret nümunələridir. 1261-ci ildə Vatikan arxivində mövcud olan məktubda özünü "Monqol ordusunun komandiri" kimi təqdim etməsi və Çingiz xanın genişlənmə siyasətinin davamçısı olduğunu vurğulaması, onun beynəlxalq arenada qazanmaq istədiyi mövqeyi göstərir.

Lakin bu diplomatik strategiyanın məhdudiyyətləri də aydın şəkildə ortaya çıxmışdır. 1260-cı ildə Ayn Calut döyüşündəki məğlubiyyət, Hülakü xanın xristian ittifaqlarına əsaslanan qərb genişlənmə strategiyasının effektivliyini şübhə altına almışdır. Bu uğursuzluq nəticəsində Monqollar Fərat çayının şərqinə sıxışdırılmış və Suriyada qazanılmış bütün ərazi qazancları itirilmişdir. Məmlük dövlətinin İslamın müdafiəçisi kimi öz legitimliyini möhkəmləndirməsi və bütün Yaxın Şərq müsəlman icmalarının dəstəyini qazanması, Elxanilərin qərb istiqamətindəki planlarını köklü şəkildə dəyişməyə məcbur etmişdir.

İlxan titulunun qəbul edilməsi və onun etimoloji mənaları ilə bağlı müzakirələr, Hülakü xanın müstəqil hökmdar kimi özünü təsdiq etmə cəhdlərini əks etdirir. Bu titulin "hökmdar" mənasında başa düşülməsi və Monqol imperiyasında yaranmış qarışıqlıqdan istifadə edərək səlahiyyətlərinin genişləndirilməsi, onun siyasi pragmatizminin nümunəsidir.

Nəhayət, Rəşid əd-Din kimi rəsmi tarixçilərin məlumatlarının tənqidi təhlili göstərir ki, bu dövrün hadisələrinin qiymətləndirilməsində müstəqil mənbələrlə müqayisəli yanaşma vacibdir. Çünkü Tolui nəslinin xidmətindəki tarixçilərin obyektivliyi institutional mövqeləri səbəbindən məhdudlaşa bilər.

Ümumilikdə, Hülakü xanın diplomatik siyasəti nestorian xristianlığının təsiri altında formalaşmış hibrid bir model nümunəsidir. Bu model ənənəvi monqol praqmatizmi ilə xristian dini motivasiyaların sintezindən yaranmış və XIII əsrin ikinci yarısında Orta Şərqin geosiyasi mənzərəsini köklü şəkildə dəyişmişdir. Baxmayaraq ki, bu siyasət qısamüddətli uğurlar əldə etmiş və xristian icmaların vəziyyətini müvəqqəti olaraq yaxşılaşdırmış, uzunmüddətli perspektivdə İslam dünyasının birləşməsi və Məmlük müqaviməti qarşısında öz məhdudiyyətlərini ortaya qoymuşdur. Bu təcrübə, dini amillərin beynəlxalq diplomatiyada oynadığı rolu və onların həm imkanlarını, həm də risklərini nümayiş etdirən mühüm tarixi nümunə olaraq qalır.

## ƏDƏBİYYAT

1. Aigle, D. (2005). The letters of Eljigidei, Hülegü and Abaqa: Mongol overtures or Christian ventriloquism? *Inner Asia, 7*(2), 143–162.

2. Amitai-Preiss, R. (1995). *Mongols and Mamluks: The Mamluk-Ilkhanid War, 1260–1281*. Cambridge University Press.

3. Azərbaycan tarixi. (2007). *Azərbaycan tarixi: Yeddi cilddə (III cild, XIII-XVIII əsrlər)* [History of Azerbaijan: In seven volumes (Volume III, 13th–18th centuries)]. Elm.

4. Bar Hebraeus. (1932). *Chronography* (E. A. W. Budge, Trans.). Oxford University Press.

5. Broadbridge, A. F. (2018). Consort houses in the Ilkhanate. In *Women and the making of the Mongol Empire* (pp. 260–295). Cambridge University Press.

6. De Nicola, B. (2017). *Women in Mongol Iran: The Khātūns, 1206–1335*. Edinburgh University Press.

7. Goodspeed, E. J. (1909). The Nestorian tablet. *The Journal of Religion, 33*(4), 241–250.

8. Grousset, R. (1970). *Empire of the steppes: A history of Central Asia* (N. Walford, Trans.). Rutgers University Press.

9. Hope, M. (2016). *Power, politics, and tradition in the Mongol empire and the Īlkhānate of Iran*. Oxford University Press.

10. Jackson, P. (2017). *The Mongols and the Islamic world: From conquest to conversion*. Yale University Press.

11. Juvaini, A.-M. (1958). *Tarikh-i Jahangushay [The history of the world conqueror]* (J. A. Boyle, Trans.). Manchester University Press.

12. Lane, G. (2003). *Early Mongol rule in thirteenth-century Iran: A Persian renaissance*. Routledge.

13. Lane, G. (2014). Soghaghtani Beki. In *The [Oxford] encyclopedia of Islam and women*. Oxford Islamic Studies Online. http://www.oxfordislamicstudies.com/article/opr/t355/e0360

14. Murad, T. (2024). Sâsânîlerin ve İlhanlıların haricî politikasında Hristiyanlık [Christianity in the foreign policy of the Sassanids and the Ilkhanids]. *Tarih Dergisi*, (82), 27–74. https://doi.org/10.26650/iutd.20231384439

15. Nəsirov, N. (2025). İlxanlılar dövlətinin dini siyasəti (İngilisdilli tarixşünaslıq əsasında) [The religious policy of the Ilkhanid state (Based on English-language historiography)]. *Tarix və onun problemləri*, (2), 14–22.

16. Sykes, P. M. (1915). *A history of Persia* (Vols. 1–2). Macmillan.

17. Tang, L. (2011). *East Syriac Christianity in Mongol-Yuan China (12th–14th centuries)*. Harrassowitz Verlag.

18. Venegoni, L. (2003). *Hülägü's campaign in the West (1256–1260)*. Eran ud Aneran. https://transoxiana.org/Eran/Articles/venegoni.html

19. Weatherford, J. (2011). *The secret history of the Mongol queens: How the daughters of Genghis Khan rescued his empire*. Crown.

20. Zhou, Y. (2018). *Studies on Nestorian iconology in China and part of Central Asia during the 13th and 14th centuries* [Doctoral dissertation, Ca' Foscari University of Venice].

## Summary

**Nasibli Khazar**

### The Impact of the Nestorian Church on the Foreign Policy of Hulagu Khan

This study examines the role of Nestorian Christianity in shaping Hulagu Khan's foreign policy in the 13th century. During the Mongol Empire's expansion into the Near East, religious factors played crucial roles not only in domestic politics but also in international diplomacy. The research demonstrates that the Nestorian Christian affiliation of Hulagu Khan's mother Sorghaghtani Beki and wife Doquz Khatun, both from the Kerait tribe, directly influenced the formation of his diplomatic worldview.

The article provides detailed analysis of the protection of Christian communities during the 1258 siege of Baghdad, the role of Nestorian general Kitbuqa in the 1260 conquest of Damascus, and the pursuit of alliances with European Christian states. Hulagu Khan's correspondence with French King Louis IX and the Roman Pope, along with promises to return Jerusalem to Christians, exemplify this strategy.

However, the defeat at the Battle of Ain Jalut in 1260 exposed the limitations of this diplomatic strategy and led to the consolidation of the Mamluk state as defender of Islam. The research concludes that Hulagu's policy emerged from a hybrid synthesis of traditional Mongol pragmatism

and Christian religious motivations, fundamentally transforming the geopolitical landscape of the Middle East in the second half of the 13th century.

***Keywords:*** *Ilkhanate, Hulagu Khan, Nestorian Christianity, Doquz Khatun, Kitbuqa, Middle Eastern diplomacy*

## Резюме

**Насибли Хазар**

### Влияние Несторианской церкви на внешнюю политику хана Хулагу

Данное исследование рассматривает роль несторианского христианства в формировании внешней политики Хулагу-хана в XIII веке. Во время экспансии Монгольской империи на Ближний Восток религиозные факторы играли важную роль не только во внутренней политике, но и в международной дипломатии. Исследование показывает, что несторианская христианская принадлежность матери Хулагу-хана Сорхахтани-беги и жены Докуз-хатун, обе из племени кераитов, непосредственно повлияла на формирование его дипломатического мировоззрения.

В статье подробно анализируется защита христианских общин во время осады Багдада в 1258 году, роль несторианского полководца Китбуки в завоевании Дамаска в 1260 году и поиск союзов с европейскими христианскими государствами. Переписка Хулагу-хана с французским королем Людовиком IX и римским папой, а также обещания вернуть Иерусалим христианам являются конкретными примерами этой стратегии.

Однако поражение в битве при Айн-Джалуте в 1260 году выявило ограничения этой дипломатической стратегии и привело к укреплению государства мамлюков как защитника ислама. Исследование приходит к выводу, что политика Хулагу возникла из гибридного синтеза традиционного монгольского прагматизма и христианских религиозных мотиваций, кардинально изменив геополитический ландшафт Ближнего Востока во второй половине XIII века.

***Ключевые слова:*** *Государство Хулагуидов, Хулагу-хан, несторианское христианство, Докуз-хатун, Китбука, ближневосточная дипломатия*